2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 yanvar 2020-ci il il tarixli, 78 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 11 yanvar 2020-ci

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsinin Qızılhacılı bələdiyyəsinə qeydə alınmış namizəd Böyükkişiyev Məhəmməd Hüsü oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) həmin seçki dairənin dairə seçki komissiyasının 27 dekabr 2019-cu il tarixli 32/72 saylı qərarından verdiyi 10 yanvar 2020-ci il tarixli, 78 saylı şikayəti nəzərdən keçirərək müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun ilkin olaraq nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş şikayətvermə müddəti ötürülməklə verilmişdir.

Belə ki, bələdiyyə üzvlüyünə qeydə alınmış namizəd M.H.Böyükkişiyev 3 yanvar 2020-ci il tarixdə notariatda təsdiq edilmiş müraciətində göstərir ki, dairə seçki komissiyasının 27 dekabr 2019-cu il tarixli 32/72 saylı qərarını poçt vasitəsi ilə 30 dekabr 2019-cu il tarixdə almışdır. Müraciət və ona əlavə edilmiş sənədlər isə onun tərəfindən 4 yanvar 2020-ci ildə poçta təqdim edilmişdir. Bununla da həmin qərardan şikayətvermə müddəti ötürülmüşdür. Göstərilənlərə əsasən müraciətin şikayətçiyə geri qaytarılması barədə rəy verilməlidir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə əsasən seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin

(hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər.

Seçki Məcəlləsinin 112-1.5.3-cü maddəsinə və müvafiq Təlimatın 7.1.-ci bəndinə əsasən şikayət müəyyən edilmiş qaydaların pozulması ilə daxil olmuşdursa, şikayətin onu təqdim edən şəxsə geri göndərilməsinə dair rəy verilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 7.1.-ci bəndinə əsasən **r ə y ə g ə l d i m:**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsinin Qızılhacılı bələdiyyəsinə qeydə alınmış namizəd Böyükkişiyev Məhəmməd Hüsü oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 yanvar 2020-ci il tarixli 78 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən şikayətçiyə geri göndərilsin.

2. Bu rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov